

Fəzail İsmayıl Böyükkişi

*(Bu yazını Azərbaycanın ilk on bir Milli Qəhrəmanından biri – Valeh Müslümovun anım gününə və Azərbaycan Dövlət Müstəqilliyinin 30 illiyinə həsr edirəm)*

# Vətən Valehin – Valeh Vətənin valehiydi

***Azərbaycanın ilk Milli Qəhrəmanları – Məhərrəm Mirəziz oğlu Seyidovun (Naxçıvan), İlham Müzəffər oğlu Əliyevin (Gədəbəy), Yuri Petroviç Kovalyovun (Göyçay), Mikayıl Əhmədiyyə oğlu Cəbrayılovun (Şəki), Əlif Lətif oğlu Hacıyevin (Xocalı), Səfəralı Qurban oğlu Məmmədovun (Masallı), Yusif Əliyusif oğlu Əliyevin (Qaradağ), Vüqar Tofiq oğlu Hüseynovun (Cəbrayıl), Nofəl Zahid oğlu Quluyevin (Şirvan), Mehdi Yusif oğlu Abbasovun (Amasya) şərəfli adları sırasında yaxın qohumum, məslək və əqidə dostum Valeh Əlizahid oğlu Müslümovun da (Lerik) adı var. Vətənimizin, xalqımızın fəxri, iftixarı olan bu şəhid övladlarımızın ərazilərimizin qorunmasında, müstəqil dövlətimizin yaranmasında, ordu quruculuğunda, müstəsna xidmətləri olub. Vətənimizin bu şəhid övladları 5 iyun 1992-ci ildə prezidentin fərmanıyla Milli Qəhrəman adına layiq görülüblər. Elə həmin vaxtdan etibarən də onların adları təhsil aldığı orta məktəblərə verilmiş, onların həyat və fəaliyyətini özündə əks etdirən xatirə muzeyləri açılmış, onların adlarına küçələr verilmiş və heykəlləri, büstləri dünyaya göz açdığı evlərinə yaxın, yaxud da rayon mərkəzlərində ucaldılmış, barələrində qəzet səhifələrində məqalələr dərc edilmiş və kitablar nəşr edilmişdir.***

Bu sirli-soraqlı dünyamıza Valeh Əlizahid oğlu Müslümov 1968-ci ilin sentyabr ayının 3-də Azərbaycanın dilbər guşələrindən olan Lerik rayonunda müəllim ailəsində göz açmışdı. Valeh ailənin ikinci övladıydı. Allah Əlizahid müəllimə bir-birindən gözəl, əxlaqlı, nəcib, mərd 10 övlad (7 oğul, 3 qız) bəxş etmişdi. İxtisasa bədən tərbiyəsi müəllimi olan Əlizahid müəllim bu böyük ailəsini öz halal zəhmətiylə (alın təriylə, əl qabarıyla) dolandırırdı. Onun uşaqları həm orta məktəbin nümunəvi şagirdləri olurdular, həm də böyüdükcə hərəsi bir işin qulpundan tutub atalarına, analarına kömək edirdilər. Qəhrəman ana ordeniylə təltif edilən anaları Nənəgül xanım da həm övladlarını böyüdür, onların hər qayğısını çəkirdi, həm də qayınanası Reyhan xanımın hər qayğısını çəkib, sevimli gəlini olurdu.

Nənəgül xanım gözəl xalça toxumağı bacardığından öz sənətini böyük qızı Mehribana da öyrətmişdi. Uşaqlar böyüdükcə o ailə büdcəsini artırmaq məqsədiylə qızıyla birgə bir-birindən gözəl xalçalar toxuyub onu baha qiymətə xalça sexinə satırdı. Azərbaycanın ilk milli qəhrəmanlarından olan Valeh Müslümovun 23 illik şərəfli ömrünə tanınmış jurnalist Həmzə Vəlimməmmədovun 2014-cü ildə həsr etdiyi 158 səhifəlik “Onu Vətən çağırdı” kitabının başlanğıcında Lerik rayonunun ərazisinin eramızdan əvvəlki minilliklərdə də yer kürəsinin qədim insan məskənləri olduğundan bəhs edilir. O Lerikin uzun ömürlülər məskəni, leriklilərin xeyirxah və cəsur insanlar olması haqqında bunları deyir: “Lerik bineyi-qədimdən igid övladlarıyla tanınıb. 1958-ci ilin axırı, 1859-cu ilin əvvəlində fransız yazıçısı Aleksandr Düma Azərbaycana gəlmiş, Lerikin tarixi abidələrindən, adət-ənənələrindən “Qafqaza səyahət” əsərində söhbət açmışdı. Cəngəmirən kəndindəki bir qadının əfsanəvi qocalığını adamlardan eşidib qələmə almışdır. Qadının balta ilə pələngi öldürüb həm ailəsini, həm də kənd camaatını faciədən xilas etməyi yazıçını heyrətə salmışdır. 37-ci ilin repressiyası Lerikdən də yan keçməmişdir. Onlarla ziyalı, eləcə də haqqında oxuculara söhbət açacağım qəhrəmanın qohumları, din xadimləri zindanlara salınır. Qazaxıstana, Qırğızıstana sürgün edilir, Vətən həsrətiylə əbədiyyətə qovuşur. Onların nəvələri, nəticələri bu gün Çuy, Cimkənd, Bişkek şəhərlərində məskən salıblar.

İkinci Cahan savaşında cəbhəyə gedən leriklilər qələbənin qazanılmasında böyük hünər göstəriblər. Onlardan 1951 nəfəri həlak olub. Həlak olanlar arasında qəhrəmanımızın babası Sənan Müslüm oğlu Əliyevin onun həmkəndlilərinin də adları vardır.

***Lerikin vətənpərvər oğulları Azərbaycanın ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaətləriylə fərqlənmişlər. 140 nəfər lerikli şəhidlik zirvəsinə yüksəlmişdir. Valeh Müslümov, Rövşən Abdullayev, Fəxrəddin Şahbazov, Fərhad Ağayev, Əsgər Əliyev ölümündən sonra Azərbaycan Respublikasının Milli Qəhrəmanı adına layiq görülmüşlər. Vətən torpaqları uğrunda gedən döyüşlərdə 78 nəfər əlil olmuşdur. Onu da qeyd edək ki, Həmzə Vəlimməmmədovun “Onu Vətən çağırdı” kitabında verdiyi bu məlumatda 2014-cü ilə qədər olan lerikli döyüşçülərdən neçəsinin Milli Qəhrəman olduğu, şəhidlik zirvəsinə qalxdığı və əlil olduğu öz əksini tapıb.***

İndiki ahıl və orta yaşlı nəslə yaxşı bəllidir ki, istər dövlət müstəqilliyimizə qədərki dövrdə (ələlxüsus 1985-1981-ci illər arasında) istərsə 1991-ci ildən bu günə qədərki dövrdə öz müstəqilliyimizə qanımız bahasına sahib durmuşuq. Hər birimizə bu da bəllidir ki, dövlərimizin müstəqil olmasında və müstəqilliyimizin qorunub saxlanmasında dünya dövlətləri içərisində sayılıb-seçilməsindən ictimai-siyasi xadimlərimizin, mütəfəkkirlərimizin, qələm sahiblərimizin, bir sözlə ziyalılarımızın müstəsna və misilsiz xidmətləri olduğu kimi əsgərlərimizin, komandirlərimizin, sərkərdələrimizin də müstəsna və misilsiz xidmətləri olmuşdur. Bu mənada Vətən övladlarına Vətən eşqi məktəbində can verməyi öyrədən ustad Şəhriyar Azərbaycan qəzəlində üzünü Azərbaycan övladlarına tutaraq belə deyirdi:

**Nə vaxta tək övladların tərki vətən olacaqdır,**
**Ya azad ol, ya tamam yan Azərbaycan.**

Ustad Şəhriyar “Şeir və hikmət” poemasında da şairi çox haqlı, Vətənin ağsaçlı sərkərdəsinə bənzədir. Əlbəttə, vətənin ağır günlərində onun övladlarını vətənin müdafiəsinə səsləyən şairinin də və vətənin əsgərlərini qalibiyyətli döyüşlərə aparan sərkərdələrinin də müstəsna xidmətləri var.

İndi də ilk milli qəhrəmanlarımız olan Valeh Müslümovun şərəfli ömür səlnaməsi timsalında Milli Ordumuzun necə qüdrətli bir orduya çevrilməsinə qədər keçdiyi yola diqqət yetirək.

Bilirik ki, Mixail Qorbaçov Sovet İttifaqı Kommlunist Partiyasının baş katibi seçiləndən sonra ermənilər fəallaşmağa başladı. 1987-ci ilin əvvəllərində ermənilər İrəvanda mitinqlərə başladılar. Bu mitinqlərdə əsas şüarı belə idi: “Yalnız ermənilərdən ibarət Ermənistan” 1987-ci ilin sonlarında Şəmkir rayonunun Çardağlı kəndinin sovxoz



direktoru Yeqinyan erməniləri Azərbaycan qanunlarına qarşı itaətsizliyə çağırırdı. Əyri yollarla külli miqdarda pul qazanan Yeginyan marşal Baqramyanın 90 illiyini keçirmək istəyirdi. O bu yığıncağa Qarabağ ermənilərini də çağırmışdı. Bunu Şəmkir rayonunun o vaxtkı birinci katibi Əjdər Əsədov bildiyindən Yeqinyan bu istədiyini başa gətirə bilmədi. Əjdər Əsədov onun partiyadan çıxarılması məsələsini qaldırdı, onu tutduğu vəzifədən azad etdi. Həmin vaxt Moskva Yeqinyanı müdafiə etdi və onu partiyadan çıxarmamağı və direktor vəzifəsində saxlatmağı Azərbaycan rəhbərliyinə göstəriş verdi. Beləliklə də, o vaxtkı Azərbaycan KP MK-nın I katibi Kamran Bağırov Moskvanın göstərişinə əməl edərək onu partiyadan çıxartmadı və sovxos direktoru vəzifəsində saxladı.

Bununla da ayağı yer alan ermənilər 1988-ci ilin əvvəllərindən Qərbi Azərbaycanda və Qarabağda da fəallaşmağa başladılar. Bu vaxt Azərbaycanda hərc-mərclik, hakimiyyət uğrunda davalar gedirdi. İstər Qərbi Azərbaycandakı (Amasyadan, Vedidən, İrəvandan, Göycədən) yurddaşlarımızın, istərsə də Qarabağdakı yurddaşlarımızın nalə və harayına Bakıdakı ixtiyar sahiblərindən yetişən olmurdu. Yalnız vətənpərvər gənclər və ziyalılar akademiyada, universitetdə, institutlarda öz haqq səslərini qaldırırdı. Xalqı Qərbi Azərbaycandakı və Qarabağdakı qardaş-bacılarımızı müdafiə etməyə çağırdılar. Moskvanın buyruğuna tabe olan hakimiyyətdəkilərin gözləmə mövqeyini görən könüllülər Qarabağa gedirdilər. Bunların arasında əsasən çoxluğu təşkil edən hüquq işçiləri və gənc tələbələr ən çox olurdu.

***Bununla da ayağı yer alan ermənilər 1988-ci ilin əvvəllərindən Qərbi Azərbaycanda və Qarabağda da fəallaşmağa başladılar. Bu vaxt Azərbaycanda hərc-mərclik, hakimiyyət uğrunda davalar gedirdi. İstər Qərbi Azərbaycandakı (Amasyadan, Vedidən, İrəvandan, Göycədən) yurddaşlarımızın, istərsə də Qarabağdakı yurddaşlarımızın nalə və harayına Bakıdakı ixtiyar sahiblərindən yetişən olmurdu***

Valeh 1983-cü ildə 8 illik məktəbi bitirəndən sonra sənədlərini Sumqayıt şəhərindəki 17 saylı peşə məktəbinə verdi. O bu peşə məktəbində bir il müddətində dülgərlik sənətinin sirlərini öyrəndi. Onun məqsədi həm eloğlusu Xanoğlan Bayramov kimi adlı-sanlı dülgər olmaq, həm də orta məktəbi bitirib İnşaat İnstitutda ali təhsil almaq idi. Beləliklə, 1984-cü ildə Valeh Müslümova xarrat-dülgər üzrə şəhadətnamə verildi. Valeh Sumqayıq şəhərindəki 2 saylı trestin səyyar mexanikləşdirilmiş dəstənin 20-ci idasərində işə başladı və 1984-1986-cı illərdə dülgər işlədi.

***O, bu, müddət ərzində trestin sayılıb-seçilən dülgərlərindən biri oldu, özünə çoxlu dostlar qazandı. Valeh 1986-1988-ci illərdə Primorski vilayətində hərbi xidmətdə oldu. O hərbi hissədə iki ay təlim keçəndən sonra serjant rütbəsi aldı. Onu dostları bütün silahlarla necə davranmağı bacaran bir serjant və məşhur kareteist kimi tanıdılar, xətir və hörmətini saxladılar. Valeh əsgər gündəliyində hərbi xidmətinin necə keçməsi haqqında belə yazırdı: ‘Hərbi xidmətə gəldiyim gündən yarım il keçir. Valeri Maksimenkonun rotasında serjantam. Məni yaxşı tanıyırlar. Əsgərlər arasında Qafqazdan gələnlər də var. Ermənilər 7 nəfərdir. Dediklərinə görə hamsı kənddən gəlib. Rusca sındıra-sındıra danışırlar. Onlara komandirin siyasi işlər üzrə müavini Arakelyan familyalı leytenant havadarlıq edir. Bir dəfə bu zabitlə söhbətimiz çap gəldi. Dedim ki, sən siyasi iş aparmaq əvəzinə əsgərlər arasında millətçilik toxumu səpirsən, gedib komandirə raport yazdı. Əsgərlər, rota komandirləri məni müdafiə etdilər.***

**(davamı gələn sayımızda)**